Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Firidun bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası









# Ölkəmizin turizm imkanları

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Firidun bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası

# Ölkəmizin turizm imkanları

*Respublika Uşaq Kitabxanaları*
*üçün tövsiyə biblioqrafiyası*

**Bakı-2019**

**Tərtibçilər:** **Nazilə Tahirova,**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,**
*Əməkdar mədəniyyət işçisi*

**Ölkəmizin turizm imkanları:** tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova, Z.Səfərova, Z.Məmmədov; red. və bur. məs. Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2019.-31 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

# Tərtibçidən

Müasir dünyada turizm hər bir ölkə üçün iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biri sayılır. Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Turizm sektorunun davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevirib. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir.

Avropa ilə Asiya arasında yerləşən və qədim adət-ənənələri özündə birləşdirən Azərbaycan bu gün bütün dünyanı sürətli inkişafı ilə heyran edir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, bütün sahələrdə olduğu kimi, turizmin inkişafına da xüsusi diqqət ayrılıb. Ötən əsrin 90-cı illərinin sonunda turizmin inkişafı ölkənin ali qanunvericilik aktlarında əksini tapıb ki, bu da tarixən neft ölkəsi kimi tanınan Azərbaycanda turizm sektorunda müsbət dəyişikliklərlə müşahidə olunub. Ölkəmizdə tərəqqi və modernləşmənin vəhdət təşkil etdiyi zamanda turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması sahəsində məqsədyönlü işlər görülür. Son illər ərzində ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi dövlətin bu sahəyə diqqətini bir daha sübut edir.

Son illər Azərbaycanda turizmin dövlət səviyyəsində dəstəklənməsi və təşviqi üçün böyük işlər görülüb. “2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı”nın imzalanması ilə inkişafın yeni konturları müəyyən edildi. 2011-ci ilin “Turizm ili” elan edilməsi bir daha sübut etdi ki, Azərbaycanda turizmin inkişafı birbaşa ölkə rəhbərliyi tərəfindən dəstəklənir. Bununla digər dövlət qurumlarının və ictimaiyyətin də diqqəti bu sahəyə yönəldi. Bu baxımdan “Turizm ili” ölkəmizdə bu sahənin inkişafı üçün geniş zəmin yaradır. Turizm sənayesində çalışan insanlar bir çox layihə və təşəbbüslərin

həyata keçirilməsi üçün indi daha çox işlər görmək imkanı əldə ediblər.

Turizm üzrə rəqabət qabiliyyətlilik siyahısında Azərbaycan 148 ölkə arasında 39-cu yerdə qərarlaşmışdır. Turizm Azərbaycanda iqtisadiyyatın ayrıca sektoru kimi mövcuddur. Ümumdünya Səyahət və Turizm Şurasının hesabatına əsasən Azərbaycan 2010-2016-cı illərdə turizmin ən sürətlə inkişaf etdiyi 10 ölkə arasına daxil olmuşdur.

Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi "Ölkəmizin turizm imkanları" adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar öz əksini tapmışdır. Vəsaitdə ədəbiyyat xronoloji prinsip əsasında, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç. 88;
**E-mail:** info@clb.az.

**“Azərbaycan Respublikasında 2011-ci ilin “Turizm ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq olunması haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

“Azərbaycan Respublikasında 2011-ci ilin “Turizm ili” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 1320 nömrəli Sərəncamına uyğun olaraq qərara alıram:

1. “Azərbaycan Respublikasında 2011-ci ilin “Turizm ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 20 iyul 2011-ci il

**Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı**

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sənəd Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən turizm məqsədləri üçün daha səmərəli istifadəni təmin etmək məqsədilə, "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli sərəncamına uyğun olaraq imzalanıb.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən turizm məqsədləri üçün daha səmərəli istifadəni təmin etmək məqsədilə, "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamına uyğun olaraq qərara alıram:

1. "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2.Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi müəyyən edilsin.

3.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 mart 2017-ci il.

# GİRİŞ

Turizmin təşkili işi istirahət və əyləncənin ən fəal formalarından biri olmaqla yanaşı həm də bir çox sosial-iqtisadi, mədəni-siyasi və kulturoloji funksiyaların həyata keçirilməsində xüsusi əhəmiyyət kəsb edir. Turizm müasir dünyanın qlobal əhəmiyyətə malik olan, sosial və iqtisadi əlaqələrini tənzimləyən, müxtəlif ölkələr və xalqlar arasında qarşılıqlı münasibətlər yaradan, biznes maraqlarının əhatə dairəsini genişləndirən sahədir.

Azərbaycanda turizm sahəsinin inkişafına ciddi diqqət göstərilməkdədir. Azərbaycan kontekstində də ölkənin diversifikasiyası, regionların inkişafı üçün məhz bu sənaye həlledici əhəmiyyət kəsb edir. Turizmdə Azərbaycanın rəqabət imkanları çox yüksəkdir. Təbii sərvətlərimiz, rəngarəng iqlimimiz, zəngin tarixi-mədəni irsimiz cəlbedici turizm məhsulu yaratmaq üçün mühüm zəmindir. Bununla bərabər, Azərbaycan dövləti turizm sahəsinin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Son 10 il ərzində ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha sübut edir. Bu tədbirlər nəticəsində Azərbaycanda turizm sənayesi yeni mərhələyə qədəm qoyub, ölkəmiz dünyada yeni turizm istiqaməti kimi tanınmağa başlayıb, beynəlxalq turizm bazarına inteqrasiya ilbəil daha geniş şəkildə təmin olunur.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yaradılmış “www.azerbaijan.travel” rəsmi milli turizm portalı son illər ərzində daxili və xarici turistlər üçün Azərbaycanın turizm potensialı, o cümlədən təbiəti, turizm infrastrukturu, ictimai nəqliyyat sistemi, ölkəmizin unikal turizm məhsulları, turizm şirkətləri və mehmanxanaları barədə geniş məlumat bazası və təbliğat vasitəsi rolunu oynayıb. Gəlmə turizmi üzrə prioritet sayılan ölkələrdə turizm potensialımızın təbliğ edilməsi

məqsədilə alman və rus saytlarında müvafiq elektron banerlər yerləşdirilib.

Ölkəmizdə davamlı turizmə nail olmaq üçün qış turizm bazasının yaradılması və mövsümlük anlayışının aradan qaldırılması zərurəti yaranıb. Bu məqsədə nail olmaq üçün Azərbaycan Respublikasındakı "Şahdağ" Yay-Qış Turizm Kompleksi dünyadakı bu tipli komplekslərdən müasirliyi və universallığı ilə fərqlənir. Kompleks Azərbaycan tarixində ilk dağ-xizək kurortudur. Bir neçə il öncəyə kimi Azərbaycan vətəndaşları qış mövsümündə turizm məqsədilə digər ölkələrə üz tuturdular. Lakin artıq Azərbaycanda iki qış turizm müəssisəsi fəaliyyət göstərir: Qusardakı "Şahdağ" Yay-Qış İstirahət Kompleksi və Qəbələ rayonunda 2014-cü ilin yanvar ayında açılışı olan "Tufan" Dağ-Xizək Mərkəzi. Bu iri komplekslərin inşası göstərir ki, Azərbaycanda təkcə yay turizminə alternativ turizm növlərinin də inkişafına və bu sahədə infrastrukturun yaradılmasına xüsusi diqqət göstərilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı digər sahələrdə olduğu kimi, turizm sahəsində də öz bəhrəsini vermiş və bu sahədə bir sıra dövlət proqramları təsdiq edilmişdi.

Son bir neçə ildə Azərbaycanda turizm sektorunun inkişafı üçün müəyyən addımlar atılıb. Bu məqsədlə yeni otellər, istirahət mərkəzləri tikilib, xarici turistlərin ölkəyə cəlb edilməsi üçün viza rejimi sadələşdirilir, həmçinin formlar, sammitlər və idman oyunları keçirilir. Əcnəbi turistlərin Azərbaycanda rahat və təhlükəsiz istirahət etmələri üçün tam təminat var. Bənzərsiz təbiət, mineral su qaynaqları, dünyada yeganə müalicəvi Naftalan nefti, nadir qədim memarlıq abidələri, özünəməxsus mədəniyyət, milli mətbəx və bir çox digər amillər Azərbaycanda turizmin bütün növlərinin: işgüzar, idman, müalicəvi, tanışlıq, ovçuluq, ekzotik, çimərlik, qastronomik və hətta qış turizminin inkişafı üçün şərait yaradır. Qarşıdan gələn yay turizm mövsümü ilə bağlı ölkəmizin geniş turizm imkanları ilə tanış olmaq və istirahətini

təşkil etmək məqsədilə çoxsaylı turistlərin Azərbaycana səfəri planlaşdırılır.

Sonda əminliklə qeyd etmək olar ki, vaxtilə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş "2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı proqramı" ölkəmizdə turizm sektorunun dirçəlməsinə təkan verib. 2002-ci ildən başlayaraq hər il Bakıda Beynəlxalq Turizm Sərgisinin (AİTF) keçirilməsi də bu baxımdan ciddi rol oynayıb. Azərbaycan Prezidenti İlham Əliyevin 6 aprel 2010-cu il tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" isə ölkəmizdə bu sahənin inkişafı üçün daha ciddi əsas yaradıb.Dövlətimizin başçısı ölkəmizdə turizmin inkişafını vacib istiqamətlərdən biri kimi şəxsən diqqətdə saxlayır.

## Turizm tarixinə qısa ekskursiya

Turizm sosial-iqtisadi sahə kimi əsasən XIX əsrin ortalarından inkişaf etməyə başlayıb. Bu dövrə qədər isə turizm fərdi gəzinti və səyahət xarakteri daşıyıb. Dünyada kütləvi turizmin ilk təşkilatçısı ingilis Tomas Kuk hesab olunur.

O, 1841-ci ildə Lankasterdən Dolnqboruqa qədər dəmir yolu ilə 570 nəfərin kütləvi gəzintisini təşkil etməklə müasir turizmin əsasını qoyub. 1869-cu ildə Avropada Beynəlxalq Mehmanxana İşçiləri Assosiasiyası yaradılıb. Bu assosiasiya 1921-ci ildə Beynəlxalq Mehmanxana İttifaqı ilə birləşib. Təbii ki, bu ənənə sürətlə inkişaf edərək bütün dünyaya yayılıb. 1954-cü ildə isə BMT-də “turizm” termini müzakirə olunub, onun beynəlxalq mahiyyəti, kulturoloji və sosial-iqtisadi əhəmiyyəti müəy-yənləşdirilib.

Azərbaycanda turizmin maraqlı tarixi var. İstər qədim, istərsə də orta əsrlərdə Asiyanın mərkəzi ərazilərindən, uzaq Çin və Hindistandan Qara və Aralıq dənizlərinin sahillərinədək uzanan karvan yolları Azərbaycan ərazisindən keçib gedirdi.

Tarixi nöqteyi-nəzərdən Azərbaycanda turizmin inkişafını bir neçə mərhələyə bölmək olar.

Birinci mərhələ qədim dövrlərdən başlamış orta əsrləri əhatə etməklə XIX əsrin əvvəllərinədək davam edib. Bu mərhələnin spesifik xüsusiyyətləri turizmin "səyahət", "səyyahçılıq" anlayışı ilə əlaqəlidir. Qədim və orta əsrlərin məşhur səyyahları müxtəlif məqsədlər üçün Azərbaycana səyahəti başa vurub vətənlərinə qayıtdıqdan sonra ölkəmizin gəzməli, görməli yerləri, təbiəti haqqında məlumat veriblər.

İkinci mərhələ XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə - Xalq Cümhuriyyəti dövrünə qədərki tarixi əhatə edir. Bu mərhələ Azərbaycanda turizmin, daha çox ekskursiya səviyyəsində təşkili üçün ilk özəl birliklərin, cəmiyyətlərin yaradılması ilə səciyyəvi olub. 1908-ci ildən etibarən Azərbaycanda müasir turizmin ənənələri özünü göstərməyə başlayıb.

Üçüncü mərhələ sovet dövrünü - 1920-1991-ci illəri əhatə edir. Bu mərhələdə Azərbaycanda turizm mütəşəkkil fəaliyyət sahəsinə çevrilib. Həmin dövrdə Azərbaycan keçmiş SSRİ məkanında qabaqcıl turizm marşrutlarından biri kimi tanınırdı. 1922-ci ildə Bakıda ilk ekskursiya dərnəkləri fəaliyyətə başlayıb. 1950-ci ildə Bakı Turist Bazası yaradılıb, bir müddət sonra isə həmin qurum Azərbaycan Turizm və Ekskursiyalar İdarəsinə çevrilib. 60-70-ci illərdə respublikada turist bazaları, yeni istirahət mərkəzləri yaradılıb.

Dördüncü mərhələ (1991-ci ildən sonra) ölkəmizin müstəqillik dövrünü təşkil edir. Yeni tarixi şərait Azərbaycanda turizmin beynəlxalq standartlar əsasında qurulmasına geniş imkanlar açıb. Turizm ölkə həyatının mühüm sahələrindən birinə çevrilib, bu sahənin inkişafı məqsədi ilə əsas prioritetlər müəyyənləşdirilib.

## Azərbaycanda turizm məkanları



İçərişəhər - Azərbaycan memarlığının nadir incisi olan İçərişəhər Bakının mərkəzində 22 hektarlıq ərazidə yerləşir. Qədim şəhərdə yüzlərlə tarixi abidə var. Bunlardan 4-ü dünya, 28-i yerli əhəmiyyətlidir. Şəhər içərisində unikal şəhər olan İçərişəhərdə 1300-dən çox ailə yaşayır, bir neçə muzey, 18 otel, 100-dən artıq ticarət və iaşə obyektləri fəaliyyət göstərir. Xəzər dənizinin sahilində orta yüksəklikli təpəliklərdə qərar tutan İçərişəhər qala divarları ilə əhatə olunur. İçərişəhər Qız Qalası və Şirvanşahlar sarayı ilə birlikdə 2000-ci ildən UNESCO-nun Dünya Mədəni İrsi siyahısına daxil edilib.

**Dənizkənarı Milli Park** - Paytaxt sakinlərinin, eləcə də qonaqların dincəlmək və əylənmək məqsədilə ən çox üz tutduğu əsas məkanlardandır. Ərazisinin böyüklüyünə görə Avropada ikinci yerdə olan Bakı Bulvarı 1998-ci il dekabrın 29-dan Milli Park statusuna malikdir. Hazırda 3 km 700 metr ərazisi olan Milli Parkda 60-70, 150-200 yaşlı ağaclar, nadir bitki növləri gələnlərdə xoş ovqat yaradır. Burada müntəzəm olaraq fayton və dəniz gəzintiləri təşkil edilir. Milli Parkda müxtəlif karusel və attraksionlar fəaliyyət göstərir. Bulvar ərazisində "4D" formatında kino zalı da var.





**“Atəşgah Məbədi” Dövlət Tarix-Memarlıq Qoruğu** - Atəşgah Abşeron yarımadasında, Bakının 30 kilometrliyindəki Suraxanı qəsəbəsinin cənub-şərq hissəsində yerləşir. XVII-XVIII əsrlərdə təbii qazın çıxdığı əbədi

alovların yerində inşa edilib. Odlar Yurdunun heç vaxt sönməyən bu əbədi məşəlində küləklə odun ecazkar rəqsinə tamaşa etməkdən zövq alacaqsınız. Unikallığına görə dünyanın möcüzəvi tarixi məkanlarından biri hesab edilən Atəşgah məbədi 2007-ci ildən Dövlət Tarix-Memarlıq Qoruğu elan olunub.



**Yanar dağ** - "Yanar dağ" Abşeron yarımadasının Məhəm-mədi kəndində yerləşir. Təbii qazın çıxdığı əbədi alovlar məkanı olan "Yanar dağ" 2007-ci ildən Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna çevrilib. "Yanar dağ" "Pilpilə", "Bozdağ", "Qaynarca"və digər adlarla da tanınır.

**Naxçıvan xan Sarayı** - Naxçıvan xan Sarayı XVIII əsrə aid tarixi-memarlıq abidəsidir. Naxçı-van-Marağa memarlıq məktəbi üslubunda tikilmiş abidə XX əsrin əvvəllərinə qədər Naxçıvan xan-larının yaşayış evi olub. Sarayı XVIII əsrin sonunda axırıncı Naxçıvan xanı Ehsan xanın atası Kəlbəli xan Kəngərli tikdirmişdir. Xan Sarayı 1998-ci ilin aprelindən Naxçıvan Xalça Muzeyi kimi fəaliyyət göstərir.





**Şəki xan Sarayı** - Bakıdan 305 km məsafədə yerləşən Şəki şəhəri təbiəti, tarixi memarlıq abidələri, eləcə də ləziz mətbəxi ilə qonaqlarda unudulmaz təəssüratlar yaradır. XVIII əsrə aid Şəki xan Sarayı Məhəmmədhəsən xan tərəfindən inşa etdirilib. Binanın memarı Zeynal Abdulladır. Sarayın memarlıq ansamblı,

şəbəkələri göz oxşayır. Şəbəkələrin hər bir kvadrat metrində orta hesabla 5000, mürəkkəb yerlərdə isə 14000 ağac və şüşə şəbəkələrdən istifadə edilib. Şəkidə hələ də nəsildən-nəslə ötürülərək yaşadılan şəbəkə sənətinin əsas xüsusiyyəti burada özünü bütün mükəmməlliyi ilə büruzə verir. Belə ki, binada mismar və yapışqandan istifadə edilməyib, ağac və şüşə parçaları bir-birinə keçirilərək bərkidilib. Buradakı ornamentlər, müxtəlif naxışlar, oymalar, rənglərin ahəngi binanın gözəlliyinə xüsusi rəng qatır. Otaqların divarları ilə yanaşı tavanı da yaraşıqlı naxışlara qərq edilib.

**Xınalıq kəndi -** Quba şəhərindən 57 km cənub-qərbdə, paytaxtdan 225 km aralıda yerləşən bu kənd etnoqrafik bənzərsizliyi ilə seçilir. O, Qafqaz dağlarının uca zirvəsində amfiteatrı xatırladır. Kəndin Xınalıq adı da elə onun təbiətinin füsunkarlığından yaranıb. Bu ad Günəş çıxdıqdan sonra dağın boyandığı rəngi ifadə edir. Dəniz səviyyəsindən 2350 metr yüksəklikdə, 5000 illik tarixə malik Qızıl Qaya, Şah, Tufan və Xınalıq dağlarının əhatəsində qərarlaşan bu kənd dünyanın ən yüksək yaşayış məntəqələrindən biridir. Kənd sakinləri mürəkkəb morfoloji struktura malik Xınalıq dilində danışırlar. Dünyada bu dildə danışan ikinci bir tayfa və ya xalq yoxdur. 2007-ci ildən Xınalıq Dövlət Tarixi Memarlıq Etnoqrafiya Qoruğu elan edilib.



**Gəncə** - Paytaxtdan 375 km məsafədə yerləşən Gəncə şəhərinə avtonəqliyyat və ya təyyarə ilə səfər etmək mümkündür. Azərbaycan rəssamlarının ilham mənbəyinə çevrilən, gözəlliyi ilə dillərdə əzbər olmuş Göygöl



elə bu ərazidədir. 1139-cu ildə Gəncədə baş vermiş zəlzələ nəticəsində Kəpəz dağı uçaraq Ağsu çayının qarşısını kəsib. Nəticədə isə füsunkar gözəlliyi, xüsusilə də suyunun şəffaflığı ilə seçilən məşhur Göygöl yaranıb. Nadir təbiəti, dünyanın heç bir yeri ilə müqayisə edilməyən fauna və florası ilə seçilən Göygöl hazırda həm də qoruq kimi fəaliyyət göstərir. Göldə qorunmaqda olan forel balıqları yaşayır. O, Azərbaycanın digər çay forellərindən xeyli fərqlənir. Azərbaycan ədəbiyyatının görkəmli simaları dahi Nizami Gəncəvinin, şairə Məhsəti Gəncəvinin, Mirzə Şəfi Vazehin doğulduğu Gəncə şəhərində onlarınn məqbərələri ucalır. XVI əsrə aid qala divarlarının qalıqları, şəhər hamamları, Cavad xanın məzarı keçmişdən dəyərli xatirə kimi saxlanılır. Gəncədən 45 km aralıqda yerləşən Maralgöl də qonaqların sevimli istirahət yeridir.

**Qəbələ** - Bakıdan 225 km məsafədə yerləşən qədim Qəbələ şəhəri 600 il ərzində Qafqaz Albaniyası dövlətinin paytaxtı olub. Dəniz səviyyəsindən 1000 m yüksəklikdə yerləşən şabalıd meşəsi bu rayonun sərvətidir. Burada dövlət tərəfindən mühafizə olunan ağacların yaşı 500 ildən çoxdur. Mineral su bulaqları və təmiz sulu çeşmələri ilə isti yay günlərində ürəklərə sərinlik gətirən Qəbələ şəhəri klassik musiqisevərlərin də görüş yeridir.




Hər ilin yay mövsümündə Qəbələdə beynəlxalq əhəmiyyətli klassik musiqi festivalı keçirilir. Dünyanın müxtəlif qitələrindən musiqi xadimləri sənət uğurlarını məhz bu füsunkar məkanda açıq səma altında paylaşırlar. Qəbələdəki qədim qalalar, məqbərələr, IX-XI əsrlərə aid qədim qüllə, Tarix-diyarşünaslıq Muzeyi tarixi öyrənmək istəyənlərin baş çəkməli olduğu yerlərdəndir. Qəbələ rayonunun Nic kəndində xeyli abidə aşkarlanıb. Kənddə olan Alban kilsəsi, "Daş bulaq" adlı tarixi

çeşmə bu abidələr sırasındadır. Eləcə də orijinal üslubda tikilən bir sıra yaşayış evləri Nicə gələn turistlərin diqqətini cəlb edir.



**Lahıc**-İsmayıllı rayonunun Lahıc qəsəbəsi Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Böyük Qafqaz sıra dağlarının cənub yamacında dəniz səviyyəsindən 1505 metr hündürlükdə yerləşir. Lahıc Girdiman çayının sahilində Babadağ və Niyaldağ silsilələri ilə əhatə olunur. İki dağın əhatəsində olması Lahıca təbii qala şəraiti bəxş edir. Belə bir coğrafi məkan qədim zamanlarda Lahıcın xarici təsirlərdən, basqınlardan yaxşı müdafiə olunması üçün imkan yaradıb.



1980-ci ildən muzey-qoruğa çevrilmiş Lahıcda həmin illərdən yadigar qalan məhəllə məscidləri, su kəməri və kanalizasiya (kürəbənd), Girdiman qalası qorunur, sənətkarlıq ənənələri davam və inkişaf etdirilir. Burada yaşayıb-yaratmış misgərlərin, zərgərlərin, sərracların, ahəngərlərin, dülgərlərin, xalçaçıların, nəqqaşların, çəkmə və çarıq tikənlərin, eləcə də digər ustaların yaratdıqları maddi-mədəniyyət nümunələri hazırda dünyada tanınır.

**Naftalan** - Kiçik Qafqaz sıra dağlarının ətəklərində məskən tutmuş Naftalan kurortu təbiətin insana olan sevgisinin ən bariz nümunəsidir. Naftalan nefti orta əsrlərdən bir çox xəstəliklərin müalicəsində təsirli dərman kimi tətbiq olunub. Bakı şəhərindən 320 km uzaqlıqda olan kurortun yayı quru-isti, qışı mülayim isti keçir. Kurort ilboyu xidmət göstərir. "1001 dərdin dərmanı" olan

Naftalan nefti əsəb, ginekoloji, uroloji və dəri xəstəliklərinin, eləcə də qaraciyər xəstəliklərinin, oynaqların müalicəsində təsirli vasitə kimi bütün dünyada məşhurdur.

**Giləzi-Altıağac** – Xızı şəhərinə tərəf irəlilədikcə Tuğçayın sağ yamacında təbiətin yaratdığı möcüzələrdən birinə rast gəlmək mümkündür ki, bu da ağımtıl-boz rəngli bentonit tipli gillər ilə qırmızımtıl rəngli adi gillərin növbələşməsindən əmələ gəlmiş bir sənət "əsəridir". Yol boyunca diqqəti cəlb edən obyektlərdən biri də relyefi, suyu, havası, sosial-iqtisadi durumunun yeniləşməsi, inkişafı nəzərə çarpan Xızı şəhəridir. Burada yolüstü dincəlmək, ədəbiyyatımızın M.Müşfiq,C.Cabbarlı kimi klassiklərini yad etməklə Xızı dağlarının seyrinə dalmaq imkanı vardır.



Dağlara tərəf irəlilədikcə Altıağac Milli Parkı daha çox maraq doğurur, çünki sözün əsl mənasında park ərazisinin canlandığı müşahidə olunur. Burada hər bir xırda kolun belə pöhrələndiyini gormək çətin deyildir. Park ərazisinə daxil olarkən burada ekoloji tarazlığın bərpası hiss olunur və meşənin sıxlığı, yaşıllığı, quşların səsi buralara xüsusi gözəllik verməklə insanı yaşamağa səsləyir.

Giləzi-Altıağac turizm marşrutunun ən gözəl istirahət obyektlərindən biri Altıağac kəndi yaxınlığında salınmış “Cənnət bağı” istirahət kompleksidir. Kompleks meşə ətəyində sakit bir guşədədir. Burada ilin bütün fəsillərində istirahət etmək üçün hər cür şərait yaradılmışdır. Belə ki, burada yüksək zövq ilə tikilmiş mehmanxana, kotteclər, restoranlar, yay kino-konsert meydançası, açıq havada təmiz suyu olan hovuz, zoopark, uşaqlar üçün müxtəlif əyləncə obyektləri, meşə ərazisində inşa edilmiş çayxana və s. vardır. "Cənnət bağı" kompleksində turistlərin istirahəti üçün maksimum şərait yaradılmışdır və burada insanların xoş istirahəti naminə yeni-yeni abadlıq, quruculuq işləri davam etdirilir.



## Ölkəmizin zənginliklərini tanıdan turizm marşrutları

Turizm sənayesi ölkələrin büdcə gəlirlərinin formalaşmasında nə qədər önəm daşıyırsa, mədəniyyətin, tarixi irsin təbliği və tanıdılmasında da bir o qədər vacib rol oynayır. Bu baxımdan ölkəmizdə də mühüm layihələr həyata keçirilir. Mədəniyyət və Turizm Nazirliyinin bu istiqamətdə həyata keçirdiyi əsas tədbirlərdən biri də beynəlxalq və yerli turizm marşrutları vasitəsilə Azərbaycan turizminin dünya turizm bazarına inteqrasiyasını təmin etməkdir. Bu marşrutlar paytaxt və bölgələrin tarixinin, mədəni irsinin, mətbəx zənginliyinin ardıcıl şəkildə tanıtımına xidmət edir.

İstənilən hər hansı bir səyahətin (müvəqqəti qalma, turlar) öncədən seçilmiş marşrutu, gecələmək proqramı, müəyyən davamiyyət və məqsədi olur.

**Marşrut** - siyahı üzrə qeyd olunmuş bütün coğrafi məntəqələrə və yerlərə gedilməsi nəzərdə tutulan və səyahət müddətində dayanacaqdan-dayanacağa qədər turistlər tərəfindən gedilən yoldur. Səyahətin başlanğıcı və sonu marşrutun çıxış və son nöqtələri hesab olunur.

Marşrutun başlanğıcı - müqavilədə nəzərdə tutulduğu kimi, turistə ilk, sonu isə axırıncı turist kimi xidmət göstərən məntəqədir.

**Marşrut növləri**: Marşrut üzrə gedilən istiqamətdə yerdəyişmədən asılı olaraq, marşrutun xətti, dairəvi, radial (radius istiqamətli) və kombinasiyalı (quraşdırılmış) növləri vardır.

**Xətti marşrut** - başlanğıcı və sonu müxtəlif coğrafi məntəqələrdə olan marşrut, məsələn, Bakı-Şəki-Sumqayıt-Tiflis.

**Dairəvi marşrut** - başlanğıcı və sonu eyni coğrafi məntəqədə olan marşrut, məsələn «Türkiyə turu» (İstanbul - İzmir - Quşadası - Patnakqala - İstambul). Dairəvi marşrutdan fərqli olaraq, başlanğıc nöqtəsində yerləşən turist, həmin nöqtədən müxtəlif istiqamətlərə səyahət edərək yenidən başlanğıc nöqtəsinə qayıdır. Məsələn, Bakı-Şamaxı-Bakı, Bakı-Gəncə-Bakı, Bakı-Şəki-Bakı, Bakı-Nabran-Bakı.

**Kombinasiyalı marşrut** - xətti, dairəvi və radial marşrut elementinin ixtiyari kombinasiyasını özündə birləşdirən marşrut. Məsələn, Bakı-Şəki-Qəbələ-Zaqatala-Qax-Zaqatala-Tiflis

Marşrut üzrə hərəkət zamanı marşrutdaxili adlanan müxtəlif nəqliyyat vasitələrindən istifadə edilə bilər.

## Yerli turizm marşrutları

Azərbaycanda turizmin inkişafını sürətləndirmək, ölkənin daxili turizm potensialının təbliği məqsədilə bölgələr üzrə turizm marşrutları müəyyənləşdirilərək istifadəyə verilib. 2006-cı ildə Mədəniyyət və Turizm Nazirliyi təşkil edildikdən sonra bu sahədə işlər daha ardıcıl şəkil alıb. Marşrutlar üzərində bölgələrə hansı turizm növünü inkişaf etdirmək mümkündürsə, o istiqamətdə müvafiq işlər həyata keçirilir. Ölkə ərazisində

arxeoloji turlar, atçılıq, safari avtotur, xalça turu kimi marşrutlar da turistlərin marağına səbəb olur.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ölkəmizin bütün bölgələri üzrə **“Kulinariya turu**” mədəni turizm marşrutları həyata keçirilir. İlkin mərhələdə 2012-2013-cü illərdə Quba və Lənkəran-Masallı marşrutu üzrə həmin bölgələrin mətbəxi ilə tanış olmaq məqsədilə ölkəmizin turizm şirkətlərinin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə infotur təşkil edilib.

Xalqımızın mədəni dəyərlərinin təbliği, onlardan turizm məqsədləri üçün daha səmərəli istifadə olunması, həmçinin regionlarda turizmin inkişafının təmin edilməsi ilə əlaqədar 2015-ci ildə “Azərbaycanda arxeoloji turizm” adlı mədəni turizm marşrutu yaradılıb. Bu turizm növünə yerli və xarici turistlərin cəlb edilməsi məqsədilə Qəbələ-Şəki-Tovuz-Şəmkir-Ağsu istiqaməti üzrə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müvafiq marşrut müəyyən olunub və turizm şirkətləri və KİV nümayəndələri üçün infotur keçirilib.

2016-cı ildə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nəsirədddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında nazirliyin və turizm şirkətləri nümayəndələrinin iştirakı ilə infotur keçirilib. Rəsədxanada astroturizmin təşkili ilə bağlı açıq kosmos gecələrinin nümayişi, astronomiya muzeyinə baxış, teleskoplarda kosmik obyektlərə müşahidələrin aparılması, həmçinin rəsəd-xananın müvafiq turizm infrastrukturu və xidmətləri ilə tanışlıq olub.

Göygöl Milli Parkında Mədəniyyət və Turizm, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin dəstəyi ilə 2016-cı ildə turizm şirkətlərinin nümayəndələri üçün infotur təşkil olunub. Tur çərçivəsində Göygöl Milli Parkında yeni istifadəyə verilmiş bir sıra mehmanxanalara, həmçinin parkın ərazisində müvafiq turizm infrastrukturu, yeni ekoloji turizm marşrutları və xidmətləri ilə tanışlıq iştirakçılar tərəfindən maraqla qarşılanıb.

**“Beş dövrün beş paytaxtı”** adlı mədəni turizm marşrutu yaradıldı. Bu turizm marşrutu üzrə turizm şirkətlərin və kütləvi

informasiya vasitələri nümayəndələri üçün infotur keçirildi. Bu marşrut tarixin müxtəlif dövrlərində Azərbaycan ərazisində yaranmış dövlətlərin paytaxtı olmuş Gəncə, Bərdə, Qəbələ, Şamaxı və Bakı şəhərlərini əhatə edir. Bu şəhərlər bir-birindən fərqli istiqamətlərdə yerləşdiyindən turizm şirkətləri "Beş dövrün beş paytaxtı" turizm marşrutuna daxil olan şəhərlərdən hər birinə və ya bir neçəsinə ayrı-ayrılıqda da tur təşkil edə bilərlər.

Ötən il Azərbaycan Turizm Assosiasiyası və Xaçmaz Regional Mədəniyyət və Turizm İdarəsinin birgə təşkilatçılığı ilə Qusar rayonuna infotur gerçəkləşib. İnfotur çərçivəsində "Xutorok" turizm istirahət mərkəzi və "Şahdağ" Turizm Mərkəzinin yay əyləncə xidmətləri ilə tanışlıq, həmçinin Ləzə kəndində ekoturizm marşrutu üzrə (Kuzun kəndindən Ləzə kəndinə meşə-dağ yolu ilə təqribən 6 km yaxın yürüş, Ləzə kəndi ilə tanışlıq və oradakı şəlaləyə səfər) ekskursiya təşkil olunub.

## Beynəlxalq turizm marşrutları

Yerli turizm marşrutlarından fərqli olaraq beynəlxalq turizm marşrutları iki və daha çox ölkəni əhatə edir və turizm sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığı inkişaf etdirir. Bu marşrutlar sayəsində bölgələrimiz beynəlxalq səviyyədə təbliğ olunur. Bu sırada "Böyük İpək Yolu", "Şərab, mədəniyyət və turizm mübadiləsi", "Aleksandr Düma Qafqazda", "Azərbaycanda alman məskənləri" və "Polyak izləri" layihələrini qeyd etmək olar.

Nazirliyin təşəbbüsü ilə irəli sürülmüş "Aleksandr Düma Qafqazda" beynəlxalq mədəni turizm marşrutu layihəsi Azərbaycan, Gürcüstan və Dağıstanda turizmin inkişafına yönəlib. Layihə 2007-ci il 30 yanvar tarixində Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında imzalanmış "Turizm sahəsində əməkdaşlıq haqqında Saziş"də öz əksini tapıb. Avropa Şurasının Mədəni Marşrutlar İnstitutunun ekspertləri marşrutu tədqiq etmək məqsədilə ölkəmizdə olaraq və Azərbaycan nümayəndələri ilə birgə Qusar-

Quba-Sumqayıt-Bakı-Şamaxı-Şəki-Zaqatala-Balakən marşrutu təsdiq edilib.

Mövcud şəraiti və potensialı nəzərə alınaraq "Şərab, mədəniyyət və turizm mübadiləsi" mədəni turizm marşrutu Bakı-Şamaxı-İsmayıllı-Şəki-Gəncə-Tovuz şəhər və rayonlarını əhatə edir. Bakı, İsmayıllı, Gəncə və Tovuzda yerləşən şərab zavodlarında konyak və şərabın satış mağazaları, həmçinin ziyarətçilər üçün dequstasiya zalları yaradılıb.

Son dövrlərdə nazirlik tərəfindən həyata keçirilən beynəlxalq infoturların müsbət nəticələri və turistlərin regional turizm marşrutlarına artan marağı nəzərə alınaraq, 2014-cü ilin 30 sentyabr - 1 oktyabr tarixlərində Gəncə şəhərində III Beynəlxalq Şərab Festivalı keçirilib. İtaliya, Fransa, Gürcüstan və Moldovadan olan şərab istehsalçıları, şərabçılıq ittifaqları və assosiasiyalarının nümayəndələrinin iştirak etdiyi festivalda müxtəlif ölkələrin şərabları nümayiş olunub.

Bu turizm marşrutlarında iştirak ölkəmizə gələn turistlərin sayının artmasına və çoxçeşidli turizm məhsulunun yaradılmasına xidmət edir. "Azərbaycanda alman məskənləri" və "Polyak izləri" turizm marşrutları həm də ölkəmizdə tarixən mövcud olan multikulturalizm mühitinin tanıdılmasına da əlavə zəmin yaradır.

## Nazirlik tərəfindən pasportlaşdırılmış turizm marşrutları

Mədəniyyət və Turizm Nazirliyi Kollegiyasının qərarı ilə təsdiq edilmiş turizm marşrutlarının inkişaf planı da ölkəmizin turizm imkanlarının tanıtımı baxımdan mühüm perspektivlər vəd edir. Ayrı-ayrı turizm marşrutlarının işləklik səviyyəsi mövsümə görə də dəyişir. Qış mövsümündə dağ-xizək və ovçuluq istiqamətli turizm sahələri daha çox işlək olur. Sağlamlıqla bağlı turist səfərləri isə mövsümdən asılı olmayaraq həmişə aktualdır.

Nazirlik tərəfindən Bakı-Salyan-Masallı-Lənkəran-Astara rayonları üzrə Şirvan Milli Parkı ərazisində "quşları müşahidə" (Bird Watching), Lənkəran şəhərində və Masallı rayonunda

“Cənubun dadı” adlı kulinariya, Salyan, Masallı və Lənkəranda “Cənub mirvarisi” adlı mədəni və ekoloji turizm marşrutları pasportlaşdırılıb.

İsmayıllı-Basqal-Lahıc istiqaməti üzrə “Qırxotaq əfsanələri” və “Fit qalası” marşrutu, Qobustan Dövlət Tarix-Bədii Qoruğu, Şirvan Milli Parkı, Hacıqabul rayonu və Mahmudçala gölü ərazisində quşları müşahidə, Quba rayonu istiqaməti üzrə “Kulinariya turu” pasportlaşdırılıb.

Qaradağ rayon ərazisində Lökbatan-Daşgil-Qoturdağ və Şamaxı rayon ərazisində Dəmirçi palçıq vulkanları, Quba-Şamaxı rayon ərazisində “Cip Safari”, Qəbələ-Şəki-Qax istiqaməti üzrə “Qədim Qafqaz Albaniyasının tarixi izləri”, Bakı-Şəmkir-Tovuz-Ağsu-Qəbələ-Bakı istiqaməti üzrə arxeoloji, Bakı-Gəncə-Bərdə-Qəbələ-Şamaxı-Bakı istiqaməti üzrə “Beş dövrün beş paytaxtı” turizm marşrutları pasportlaşdırılıb.

Bu turizm marşrutları boyunca müvafiq infrastrukturun yaradılması istiqamətində də işlər davamlı olaraq aparılır. Marşrutlar boyu turizm marşrutlarının və tarixi abidələrin nişanlarının quraşdırılması, yol qırağında turistlər üçün müvafiq infrastrukturlu dayanacaqların yaradılması (suvenir satışı köşkləri, restoran, super-market, uşaq meydançaları) təmin olunur.

Marşrutlar üzrə daha çox turist axınını təmin etmək məqsədilə nazirlik tərəfindən turizm şirkətləri və media nümayəndələrinin iştirakı ilə infoturlar təşkil olunur.

# Ədəbiyyat

## Kitablar


### 2012

**1.Gədəbəy:** Turizm perspektivləri /F. Məmmədova, E. Əliyev; red. N. Əliyeva.-Bakı: [Ləman NP MMC], 2012.- 86, [2] s.

### 2013

**2.Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri:** [monoqrafiya] /E.Q. Məmmədov; elmi red. Ə. Q. Əlirzayev; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət İqtisad Un-ti.- Bakı: [Gənclik], 2013.- 170, [1] s.: portr., sxem., cədv., 20 sm.

### 2014

**3.Meqapolisdə turizm sənayesinin formalaşması və inkişafı** /N. M. Mirzəliyev (ön söz); elmi red. R.S. Səfərov; red. M.M. Mirzəliyeva.- Bakı şəhərinin meqapolis perspektivləri [Mətn].- Bakı: [Nurlan], 2014.- 131, [1] s.: portr., 20 sm.

### 2015

**4.Azərbaycan Respublikası beynəlxalq idman və turizm əlaqələri sistemində** [Mətn]: (1991-2005-ci illər) /Y. Həsənov; elmi red. S. A. Sayadov; AMEA, A.A. Bakıxanov adına Tarix İnstitutu. - Bakı: [Elm və təhsil], 2015. - 206, [2] s.: şək., fotoşək.;

**5.Azərbaycanda turizm**: statistik məcmuə /Azərb. Resp. Dövlət Statistika Komitəsi; [məcm. üm. rəhb. H. Bağırov; buraxılış üzrə məsul şəxs. A. İbrahimova].- Bakı: [Azərb. Resp. Dövlət Statistika Komitəsi], 2015.- 218, [2] s.: cədv., 24 sm.- Azərbaycan və ingili. dillərindədir.

**6.Turizmin əsasları**: ali məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik /[müəl. kol. B. Bilalov [və b.]] ; B. Ə. Bilalov və Ç.G. Gülalıyevin red. ilə; [ön söz C. Cəfərov]; lay. rəhbəri Ç.G.

Gülalıyev; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Turizm və Menecment Un-ti.. - Bakı: [QHT Nəşriyyatı], 2015. - 492, [4] s.

**2017**

**7.Turizm fəaliyyətinin ekoloji-erqonomik əsasları** /Ç.G. Gülalıyev; elmi red. B. Ə. Bilalov; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Turizm və Menecment Un-ti, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Vətəndaş Təşəbbüsləri Mərkəzi.-Bakı: [QHT], 2017.- 151 s.: şək., cədv., 20 sm.

**2018**

**8.Azərbaycanın turizm potensialının internet vasitəsilə təbliği** /[Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Qloballaşan Dünyaya İnteqrasiya İctimai Birliyi] ; tərt. İ. Ağayev.-.Bakı: [Səda], 2018.- 22, [1] s.: portr., 20 sm.

## Dövri mətbuatda dərc edilmiş materialllar

**2011**

**9.Bu il Azərbaycana gələn turistlərin sayı 2 milyona çata bilər**: Oqtay Haqverdiyev: "Turizm sektoru ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilə bilər"//Üç nöqtə.-2011.- 29 mart. - S. 10.

**10.Məmmədov, T.** Kənd turizminin inkişaf etdirilməsi yolları //AMEA-nın Naxçıvan bölməsinin xəbərləri: İctimai və humanitar elmlər seriyası.-2011.- C.7.- № 1.- S.289-296.

**11.Nəzakət.** Respublika iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib : Prezident İlham Əliyevin 2011-ci ili

"Turizm ili" elan etməsi Azərbaycanda turizmin inkişafına daha geniş meydan //Səs.-2011.- 26 yanvar.- S. 8.

**12.Turizm sektorunun modern prioritetləri** //İki sahil.-2011.- 18 avqust.- S. 13.

**13.Turizm tarixinə qısa ekskurs** //Mədəniyyət.-2011.- 27 aprel.- S. 13.

**14.Zümrüd.** Azərbaycan beynəlxalq turizm sərgilərində //Səs.-2011.- 15 yanvar.- S. 12.

## 2012

**15.“Turizm ili” Azərbaycan turizmi üçün zəngin olub** //Kaspi.-2012.- 11 yanvar.- S.11.

**16.Fəxriyyə.** Bakıda kəsişən turizm yolları //Mədəniyyət.-2012.- 20 aprel.- S. 8.

**17.Mehparə.** Azərbaycanın xarici tərəfdaşlarla turizm əməkdaşlığı genişlənir [Mətn] /Mehparə //Mədəniyyət.-2012.- 13 aprel.- S. 3.

**18.Mükərrəmoğlu, M.** “Turizm ili” yekunlaşsa da, turizm quruculuğu davam edir //Xalq qəzeti.-2012.- 8 yanvar.- S. 2.

**19.Nəsirli, T.** İsmayıllının unikal turizm məkanı //Mövqe.-2012.- 27 aprel.- S. 14.

**20.Nəzakət.** Azərbaycan perspektivli turizm ölkəsidir.-2012.- 3 avqust.- S. 11.

**21.Turizm Azərbaycanın qarşısında yeni üfüqlər açır:** Turizm ilinə yekun vurarkən //Azərbaycan.-2012.- 14 yanvar.- S. 4.

**22.Yaqubzadə, M.** Ölkəmizin turizm imkanları genişlənir //Xalq qəzeti.-2012.- 29 aprel.- S. 2.

## 2013

**23.Abdullayeva, F.** Konqres turizmi üçün mövsüm anlayışı yoxdur: Ölkəmizdə bu turizm növünün böyük imkanları var // Mədəniyyət. - 2013. - 21 iyun. - № 44. - S. 9.

**24.Azərbaycan nüfuzlu turizm ölkəsi kimi tanınır** // Mədəniyyət. - 2013. - 4 avqust. - № 62. - S. 9.

**25.Babaşova, Ş.** Uşaq və yeniyetmələrlə ekskursiya və turizm işinin təşkili //Mədəni Həyat. - 2013. - № 12. - S. 30-34.

**26.Bilalov, B.** Azərbaycanda turizmin formalaşması və inkişafında Heydər Əliyevin rolu //Mədəni Həyat. - 2013. - may. - № 5. - S. 23-27.

**27.Əlizadə, Ş.** Azərbaycan turizm sənayesinin inkişafı üçün zəngin ehtiyatlara malikdir //Respublika. - 2013. - 25 dekabr. - № 284. - S. 7.

**28.Hacıyev, A.** Turizm qeyri-neft sektorunda gəlirli sahəyə çevrilir : 27 sentyabr Ümumdünya Turizm Günüdür // Respublika. - 2013. - 27 sentyabr. - № 212. - S. 9.

**29.Qarayev, Ə.** Azərbaycan turizminə baxış: 10 illik inkişafın nəticələri: 27 sentyabr Ümumdünya Turizm Günüdür //Azərbaycan. - 2013. - 27 sentyabr. - № 213. - S. 4.

**30.Musa, S.** Azərbaycan turizmi inkişaf dövrünü yaşayır //Mədəniyyət. - 2013. - 2 avqust. - № 56. - S. 11.

**31.Sevinc.** Azərbaycanda turizmin inkişafı regionlarda infrastrukturun tərəqqisini də təmin edir: Prezident İlham Əliyev: Daxili turizm çox sürətlə inkişaf edir. Amma biz çalışmalıyıq ki, xarici qonaqlar da bu imkanlardan istifadə etsinlər //Yeni Azərbaycan. - 2013. - 30 dekabr. - № 248. - S. 2.

## 2014

**32.Azərbaycanda Dünya Turizm Günü qeyd edilir** //İki sahil. 2014. - 27 sentyabr. - № 176. - S. 30.

**33.Azərbaycanda qış turizminin inkişafı üçün geniş imkanlar var** // Mədəniyyət. - 2014. - 8 yanvar. - № 2. - S. 8.

**34.Babanlı, Y.** Azərbaycanın turizm potensialı "Nyu-York Tayms" səyahət sərgisində nümayiş olunmuşdur //Azərbaycan. - 2014. - 4 mart. - № 47. - S. 7.

**35.Xarici turistlər Şamaxıya maraq göstərirlər** //Mədəniyyət. - 2014. - 12 fevral. - № 12. - S. 9.

**36.Mükərrəmoğlu, M.** Turizmin inkişafı Azərbaycanın mühüm strateji hədəflərindəndir //Xalq qəzeti. - 2014. - 26 oktyabr. - № 233. - S. 5.

**37.Nigar.** Naxçıvanın turizm potensialı //Palitra.-2014.- 21 fevral.- S.15.
**38.Sultanova, M.** Azərbaycan bölgələri gözəl turizm məkanıdır// Mədəniyyət. - 2014. - 12 mart. - № 19. - S. 7.
**39.Yunisli**, **F.** Naxçıvan turistlər üçün cəlbedici məkandır // Mədəniyyət. - 2014. - 7 noyabr. - № 85. - S. 12.

**2015**

**40.Abdullayeva, F.** Qış turizmi - yeni imkanlar və perspektivlər //Mədəniyyət.az. - 2015. - № 11. - S. 94-96
**41.Abdullayeva, F.** Təbiətin möcüzəsi - Göygöl: turizm //Mədəniyyət.az. - 2015. - № 8. - S. 108-111.
**42.Abdullayeva, F.** Turizm - xidmət etikası //Mədəniyyət.az. - 2015. - № 10. - S. 98-101.
**43.Əhmədov,A.** Azərbaycanda turizm yeni inkişaf mərhələsində: 27 sentyabr Ümümdünya turizm günüdür //Respublika. - 2015. - 24 sentyabr. - № 209. - S. 7.
**44.Əliyev, Ü.** Naftalan beynəlxalq kurort kimi məşhurlaşır // Xalq qəzeti. - 2015. - 2 avqust. - № 164. - S. 7.
**45.Hüseynov, İ.** Beynəlxalq turizm: Turizmin inkişafında yeni informasiya texnologiyalarının rolu //Mədəni Həyat. - 2015. - № 1. - S. 2-5.
**46.Xəlilov, Z.** Naftalan : turizmin inkişafı üçün əlverişli şərait // Respublika. - 2015. - 2 avqust. - № 164. - S. 4.
**47.İmanquliyev, B.** Turizm Azərbaycanda ən prespektivli sahələrdəndir //Azərbaycan. - 2015. - 2 dekabr. - № 265. - S. 10.
**48.Qarayev, Ə.** Ölkəmizin dinamik inkişafı mədəniyyət və turizm sahələrində də əksini tapır //Azərbaycan. - 2015. - 30 yanvar. - № 22. - S. 5.
**49.Məmmədov, S**. Azərbaycanın qabaqcıl turizm ölkəsi olması üçün hər cür şərait var //Xalq qəzeti. - 2015. - 13 avqust. - № 173. - S. 5.
**50.Şixəmmədov, V.** Azərbaycanda turizmin inkişaf perspektivləri // Xalq qəzeti. - 2015. - 18 yanvar. - № 13. - S. 6.

**51.Yusifoğlu, Q.** I Avropa Oyunları Azərbaycanın böyük turizm potensialını üzə çıxartdı // Xalq qəzeti. - 2015. - 25 iyun. - № 135. - S. 4.

**2016**

**52.Abdullayeva, F.** Azərbaycanda turizmin inkişafının ən yeni mərhələsi // Mədəniyyət.az. - 2016. - № 9. - S. 100-103

**53.Hüseynov, F.** Turizm sektorunda inkişaf illəri : Mədəniyyət və Turizm Nazirliyi - 10 //Mədəniyyət. - 2016. - 29 yanvar. - № 7/8. - S. 13.

**54.Hüseynov, F.** Turizm sektorunda mühüm yeniliklər və islahatlar ili //Mədəniyyət. - 2016. - 30 dekabr. - № 100. - S. 9.

**55.Rüstəmova, G.**Dağ-xizək turizminin beynəlxalq turizmdə yeri // Mədəniyyət.az. - 2016. - № 2. - S. 78-79.

**56.Zümrüd.** Azərbaycan perspektivli turizm ölkəsidir // Səs. - 2016. - 2 mart. - № 40. - S. 10.

**2017**

**57.Abdullayeva, N.** Azərbaycan dünyada turistlərin ən çox üstünlük verdiyi 20 turizm məkanından birinə çevriləcək / N. Abdullayeva //Palitra. - 2017. - 20-22 may. - № 4. - S. 4.

**58.Əliyev, A.** Qusar Azərbaycanda turizmin inkişaf modelidir // Azərbaycan. - 2017. - 23 avqust. - № 183. - S. 5.

**59.Əliyeva, İ.** Azərbaycanın turizm potensialını dünyaya təqdim edən mədəniyyət layihələri /İ. Əliyeva //Azərbaycan.- 2017.- 13 yanvar. - № 7.- S. 6.

**60.Naxçıvanda kənd turizmi** inkişaf edir //Səs.- 2017.- 22 avqust. - № 150. - S. 12.

**61.Nərimanoğlu, M.** Gözəlliklər diyarı Azərbaycanda ekoturizmin inkişafı üçün geniş imkanlar var //Azərbaycan - 2017. - 20-22 may. - № 5. - S. 7.

**62.Rəsulova, R.** Naxçıvan turizm məkanı kimi tanınmağa iddialıdır / R. Rəsulova //Xalq qəzeti. - 2017. - 21 may. - № 108. - S. 5.

**2018**

**63.Bayramov, Ə.** Turizm sektorunun sürətlə inkişaf etdirilməsi istiqamətində ölkəmizdə mühüm layihələr həyata keçirilir // Xalq qəzeti. - 2018. - 20 fevral. - № 39. - S. 5.

**64.Ələddinqızı, N.** Azərbaycan dünyanın ən gözəl turist **ölkələrindən** biridir // Səs. - 2018. - 25 oktyabr. - № 202. - S. 7.

**65.Ələddinqızı, N.** Turizm sürətlə inkişaf edən iqtisadi sektora çevrilib // Səs. - 2018. - 22 iyun. - № 116. - S. 7.

**66.Hacıyev, A.** Turizm inkişaf etdikcə daha gəlirli sahəyə çevrilir // Respublika. - 2018. - 9 iyun. - № 128. - S. 6.

**67.Məhərrəmova, N.** Turistlər niyə Azərbaycanı seçir? // Səs. - 2018. - 6 sentyabr. - № 167. - S. 10.

**68.Məhərrəmova, T.** Kənd turizmini necə inkişaf etdirməli?// Kaspi. - 2018. - 9 mart. - № 43. - S. 9.

**69.Mükərrəmoğlu, M.** Turizmin davamlı inkişaf ili // Xalq qəzeti. - 2018. - 7 yanvar. - № 3. - S. 4.

**2019**

**70.Bayramova, Z.** 2019-cu ildə turizmin inkişafına daha geniş perspektivlər açılacaq // Səs. - 2019. - 4 yanvar. - № 1. - S. 13.

**71.Mustafayev, S.** Turizmin inkişafında uğurlu mərhələ// Mövqe. - 2019. - 17 yanvar. - № 10. - S. 10.

**72.Salmanlı, R.**İstirahət qışda da gözəldir : Qış turizmi // Azərbaycan : qəzet. - 2019. - 16 yanvar. - № 11. - S. 1, 7.

**73.Zümrüd.** Turizm iqtisadiyyatın əsas inkişaf dayaqlarındandır // Səs. - 2019. - 25 yanvar. - № 16. - S. 11.

**74.Zümrüd.** "Şahdağ" Turizm Mərkəzi dünyanın nüfuzlu istirahət mərkəzləri ilə rəqabət apara biləcək məkandır //Səs. - 2019. - 9 aprel. - № 62. - S. 12.

# Dissertasiyalar

## 2013

**75.Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri:** iqt. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis-nın avtoreferatı: 5312.01 /E. Q. Məmmədov ; AMEA, İqtisadiyyat İn-tu.-Bakı: 2013.- 23, [1] s.: cədv.,

## 2016

**76.Azərbaycanda turizm potensialından istifadənin səmərəliliyinin artırılması istiqamətləri**: iqt. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis.: 5312.01 /A.F. Mirzəyev; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Turizm və Menecment Un-ti.- Bakı: 2016.- 161 s.: şək., cədv.,

## 2018

**77.Azərbaycanda turizm biznesinin inkişaf problemləri:** iqt. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: 5312.01 /S. R. Rüstəmova ; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət İqtisad Un-ti., İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İn-tu.- Bakı: 2018.-26 s.: şək., cədv.,

**78.Turizmin inkişafına investisiya qoyuluşlarının cəlbediciliyi və ondan istifadənin səmərəliliyinin artırılması:** iqt. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis-nın avtoreferatı: 5308.01 /V. E. İldırımzadə; Azərb. Resp. Təhsil Nazirliyi, BDU. Bakı: 2018.- 26, [1] s.: cədv.

# Ölkəmizin turizm imkanları

Respublika Uşaq kitabxanaları üçün
tövsiyə biblioqrafiyası

**Kompüter yığımı
və dizayn:** **Tünzalə Əzizova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: info@clb.az.**
**URL:www.clb.az**

F. Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 03
Çapa imzalanmışdır: 20.11.2019
Tirajı:100
Pulsuz.